Azərbaycanda prezident seçkilərinə 5 gün qalıb. Seçki məntəqələrində hazırılıq bu gün tam başa çatır. Xaricdə yaşayan azərbaycanlılar da oktyarın 9-u keçiriləcək prezident seçkilərində, ümumilikdə, 38 məntəqədə səs verəcəklər. 15 minə yaxın seçici səs verəcəyi məntəqə haqqında məlumatı onlayn və ya telefon vasitəsilə əldə edəcək.

Ölkəmizdə də seçicilərin, xüsusilə də, fiziki imkanları məhdud insanların səsvermədə fəallığını təmin etmək məqsədilə bir sıra işlər görülür. 10 minə yaxın gözdən əlil seçici üçün brayn əlifbası ilə hazırlanan trafaretlər artıq məntəqələrə paylanıb. Mərkəzi Seçki Komissiyası bu il seçki tariximizdə ilk dəfə olaraq əlil arabasında olan seçicilər üçün xüsusi şərait yaradıb.
MSK katibliyinin müdiri Rövzət Qasımovun sözlərinə görə, əlil arabasında olan əlillərin olduğu seçki məntəqələrini araşdırılıb və ora panduslar quraşdırılıb. "Əlillər bu məntəqələrdə rahat heç kimin köməyi olmadan gəlib səs verə biləcəklər"

{youtube}o4rkZRIRJiQ{/youtube}